

“Azərbaycan xalqının özünü, öz dövlətini qoruya bilən əsgərləri, zabitləri, ordusu var”.

# AZƏRBAYCAN ORDUSU

AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır 5 sentyabr 2026-cı il №61 (3063) https://mod.gov.az Qiymәti 30 qəpik

## Heydər Əliyev - müasir Azərbaycanın və qalib ordunun qurucusu



***Azərbaycanın müasir tarixində 1991-ci il sentyabrın 3-ü də xüsusi əhəmiyyət daşıyır. Həmin gün Naxçıvan Muxtar Respublikası Ali Məclisinin fövqəladə sessiyasında xalqın və deputatların təkidli tələbi ilə Ümummilli Lider Heydər Əliyev Ali Məclisin Sədri seçildi. Sessiyada iştirak edən 75 deputatdan 70-i onun namizədliyinin lehinə səs verdi, digər 5 deputat isə bitərəf qaldı. Bu seçim Azərbaycanın mürəkkəb ictimai-siyasi və hərbi-siyasi vəziyyətində xalqın Heydər Əliyevin siyasi iradəsinə və dövlətçilik təcrübəsinə olan inamının ifadəsi idi.***

1991-ci ilin əvvəlləri Azərbaycan üçün olduqca ağır sınaqlar dövrü oldu. Sovet İttifaqının dağılması prosesi gedir, ölkənin müstəqilliyi qarşısında ciddi təhlükələr yaranır, Ermənistanın Azərbaycana qarşı təcavüzü genişlənirdi. Naxçıvan isə coğrafi baxımdan Azərbaycanın əsas ərazisindən ayrı düşmüş, Ermənistan tərəfindən blokadaya alınmış vəziyyətdə idi. Belə bir şəraitdə Naxçıvanda siyasi sabitliyin qorunması, milli dövlətçilik ideyasının möhkəmləndirilməsi və muxtar respublikanın müdafiəsinin təmin olunması həyati əhəmiyyət daşıyırdı.

Heydər Əliyevin Ali Məclisin Sədri seçilməsi ilə Naxçıvanın ictimai-siyasi həyatında yeni mərhələ başladı. Hələ 1990-cı il noyabrın 17-də Naxçıvan Ali Məclisinin sessiyasında Azərbaycan Xalq Cümhuriyyətinin üçrəngli bayrağının Naxçıvanın dövlət bayrağı kimi qəbul edilməsi, muxtar respublikanın adından “Sovet Sosialist” sözlərinin çıxarılması kimi mühüm qərarlar qəbul edildi. Bu qərarlar sonradan müstəqil Azərbaycanın dövlətçilik tarixinin mühüm siyasi hadisələrinə çevrildi.

1991-ci il sentyabrın 3-də Ali Məclisin Sədri seçildikdən cəmi dörd gün sonra, yəni, sentyabrın 7-də Naxçıvan Muxtar Respublikası Dövlət Müdafiə Komitəsinin yaradılması haqqında qərarın qəbul edilməsi isə xüsusi əhəmiyyət daşıyırdı. Ardınca, oktyabrın 26-da Naxçıvanda yerləşən sovet qoşunlarının statusu ilə bağlı qərar qəbul edildi və onun icrası nəticəsində keçmiş sovet ordusunun hissələrinin muxtar respublikadan çıxarılması, həmin qoşunlara məxsus silah-sursat və hərbi texnikanın Naxçıvanda saxlanılması təmin olundu.

Bu dövrdə Ermənistanın muxtar respublikaya qarşı hərbi təzyiqinin artdığı bir vaxtda Heydər Əliyev Türkiyə ilə əlaqələrin möhkəmləndirilməsinə də xüsusi diqqət yetirirdi. 1992-ci ildə onun Türkiyəyə və İrana səfərləri zamanı müxtəlif sahələrdə əməkdaşlıq haqqında sənədlərin imzalanması, Naxçıvan-Türkiyə əlaqələrinin inkişaf etdirilməsi muxtar respublikanın siyasi və iqtisadi vəziyyətinin möhkəmləndirilməsində mühüm rol oynadı. Həmin dövrdə Türkiyə ilə Naxçıvan arasında “Ümid körpüsü”nün açılması da mühüm hadisələrdən biri idi.

(Ardı 2-ci səhifədə)

## “Bizim işimiz haqq işidir, qələbə çalacağıq!”

Riad Fikrət oğlu Əhmədov Birinci Qarabağ müharibəsi zamanı respublikamızın müstəqilliyi, suverenliyi və ərazi bütövlüyü uğrunda döyüşərək, “Bizim işimiz haqq işidir, qələbə çalacağıq!” deyərək şəhidlik zirvəsinə ucalan və “Azərbaycanın Milli Qəhrəmanı” adına layiq görülən ilk peşəkar, vətənpərvər şəhid zabitlərimizdən biri olub. Onun şanlı və şöhrətli ömür yolu ordumuzun şəxsi heyətinə örnəkdir.

20 dekabr 1956-cı ildə Bakı şəhərində ziyalı ailəsində dünyaya göz açmışdı Riad. O, Bakıdakı 134 saylı orta məktəbdə təhsil alıb. 1979-cu ildə Azərbaycan Dövlət Universitetinin (indiki Bakı Dövlət Universiteti) hüquq fakültəsini fərqlənmə diplomu ilə bitirib.1976-1979-cu illərdə Azərbaycan SSR Ədliyyə Nazirliyi yanında Məhkəmə Ekspertizası İnstitutunda işləyib.

(Ardı 6-cı səhifədə)

## Dördkünc Mərdəkan qəsri

Abşeronun qədim yaşayış məskənlərindən biri olan Mərdəkan qəsəbəsi əsrlər boyu strateji mövqeyi ilə seçilib. Xəzər sahilinə yaxın yerləşən bu ərazi orta əsrlərdə mühüm yaşayış məntəqələrindən olmaqla yanaşı, müdafiə baxımından da əlverişli mövqeyə malik olub. Bu gün Mərdəkanın tarixi simasını müəyyənləşdirən abidələr sırasında Dördkünc Mərdəkan qəsri və ya Böyük Mərdəkan qəsri adı ilə tanınan memarlıq abidəsinin xüsusi yeri var.

XII əsrin sonlarında Şirvanşahlar dövlətinin ərazisində müdafiə qurğularının yaradılmasına xüsusi əhəmiyyət verilirdi. Böyük Mərdəkan qəsri də həmin dövrün istehkam tikililərindən biri kimi 1187–1188-ci illərdə, Şirvanşah I Axsitanın hakimiyyəti dövründə inşa edilib. Abidənin tarixini təsdiqləyən kitabədə Axsitan ibn Mənuçöhrün adı və 583-cü hicri ili göstərilir. Tarixi məlumatlarda qəsrin I Axsitanın düşmən üzərində qazandığı qələbənin şərəfinə ucaldıldığı qeyd olunur.

(Ardı 3-cü səhifədə)

## Vətən qarşısında məsuliyyət cinslə ölçülmür

Tarix bəzən özünün ən mühüm səhifələrini döyüş meydanlarında yazır. Həmin səhifələrdə isə yalnız kişilərin deyil, qadınların da adı var. Tomrisdən Janna d’Arka qədər müxtəlif dövrlərdə yaşamış qadınlar sübut ediblər ki, Vətənin müdafiəsi, cəsarət və liderlik yalnız bir cinsə aid edilə bilməz. Tarix insanın qarşısına sınaq qoyanda onun qadın və ya kişi olmasına deyil, hansı iradəyə, hazırlığa və əqidəyə sahib olduğuna baxır. E.ə. VI əsrdə yaşamış massaget hökmdarı Tomris bu baxımdan tarixdə xüsusi yer tutur. O, yalnız hökmdar deyil, xalqının taleyini müəyyən edən siyasi və hərbi lider kimi də yadda qalıb. Qədim tarixçi Herodotun yazdıqları əsasında günümüzə gəlib çatan Tomris obrazı qadının dövlət idarəçiliyində və hərbi qərarların qəbulunda mühüm rol oynaya bildiyini göstərən ən qədim nümunələrdəndir.

Əsrlər sonra Fransada Janna d’Ark meydana çıxdı. XV əsrdə yaşayan bu gənc qadın Fransa ilə İngiltərə arasında gedən Yüzillik müharibə zamanı fransız qoşunlarının ruh yüksəkliyinin formalaşmasında mühüm rol oynadı. Onun adı hərb tarixində qadınlik mövqeyində ola bilməsinin simvollarından birinə çevrildi. Bu nümunələri sadalamaqda məqsəd tarixdə qadınların kişilərlə eyni şəkildə döyüşməli olduğunu iddia etmək deyil. Əsas məqam başqadır: Vətənin, dövlətin və xalqın taleyi qarşısında məsuliyyət cinslə ölçülmür.

(Ardı 3-cü səhifədə)

## Beynəlxalq hərbi təhsil sistemi: oxşar metodlar, fərqli yanaşmalar

***Yeniyetməlik dövrü insan həyatının ən həssas və mühüm mərhələlərindən biridir. Bu dövrdə uşaqlar həm fiziki, həm də psixoloji dəyişikliklər yaşayır, öz şəxsiyyətlərini formalaşdırmağa çalışırlar. Bəzən bu dəyişikliklər davranış problemləri, aqressivlik, məsuliyyətsizlik və ya intizamsızlıq kimi hallarla müşahidə oluna bilər. Buna görə də yeniyetmələrin enerjisinin düzgün istiqamətə yönəldilməsi həm fərdin inkişafı, həm də cəmiyyətin gələcəyi üçün böyük əhəmiyyət daşıyır.***

Hərbi təhsil bu baxımdan yeniyetmələrin tərbiyəsində və formalaşmasında mühüm rol oynayır. İlk növbədə, nizam-intizam, məsuliyyət və təşkilatçılıq bacarıqlarını inkişaf etdirir. Hərbi hazırlıq və komanda şəklində yerinə yetirilən tapşırıqlar onların qaydalara əməl etməsinə, vaxtdan səmərəli istifadəyə və kollektivlə işləmək bacarıqlarının gücləndirilməsinə, ən əsası da vətənpərvərlik hissinin formalaşmasına müsbət təsir göstərir. Fiziki sağlamlığın inkişafında da hərbi hazırlığın rolu əhəmiyyətlidir. Məşqlər yeniyetmələrin dözümlülüyünü, çevikliyini və iradəsini artırır.

(Ardı 4-cü səhifədə)

# Heydər Əliyev - müasir Azərbaycanın və qalib ordunun qurucusu



(Əvvəli 1-ci səhifədə)

Naxçıvanın müdafiəsi istiqamətində atılan addımlar hərbi sahədə də özünü göstərdi. 1992-ci il sentyabrın 15-də Naxçıvanda milli ordu hissələrindən biri olan 5-ci əlahiddə gücləndirilmiş motoatıcı birlik yaradıldı. Həmin il oktyabrın 9-da isə Naxçıvanda ilk milli hərbi parad keçirildi. Bu hadisələr müstəqillik yoluna qədəm qoyan Azərbaycanın milli ordu quruculuğunun mühüm göstəriciləri idi.

Ümummilli Lider həmin dövrdə özünün siyasi mövqeyini xalqın iradəsi ilə bağlayırdı. 3 sentyabr 1991-ci ildə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin fövqəladə sessiyasında səsləndirdiyi sözlər bunu aydın göstərir: “Mən öz taleyimi xalqa tapşırmışam və xalqın iradəsini, yəqin ki, indi bu müddətdə, bu çətin dövrdə yerinə yetirməliyəm.” Bu fikir həmin tarixi günün siyasi mahiyyətini də ifadə edir.

Heydər Əliyevin Naxçıvandakı fəaliyyəti yalnız muxtar respublikanın problemlərinin həlli ilə məhdudlaşmırdı. O, 1991-ci il oktyabrın 18-də Azərbaycanın dövlət müstəqilliyi haqqında Konstitusiya Aktının qəbul edilməsindən sonra Naxçıvan Ali Məclisi müstəqilliklə bağlı qəbul edilmiş qərarlara tərəfdar olduğunu bildirdi. Həmin il dekabrın 16-da isə Heydər Əliyevin təşəbbüsü ilə 31 dekabrın Dünya Azərbaycanlılarının Həmrəylik Günü kimi qeyd olunması haqqında qərar qəbul edildi.

1993-cü ildə Heydər Əliyevin Azərbaycanda siyasi hakimiyyətə qayıdışı bu baxımdan yeni mərhələnin başlanğıcı oldu. Ölkədə siyasi böhran, iqtisadi çətinliklər və hərbi uğursuzluqlar hökm sürürdü. Azərbaycan ərazilərinin işğalı davam edir, orduda vahid komandanlıq və nizam-intizam məsələləri ciddi problem olaraq qalırdı. Belə bir şəraitdə əsas vəzifələrdən biri dövlət hakimiyyətinin möhkəmləndirilməsi və nizami ordunun yaradılması idi.

Ulu Öndər Heydər Əliyevin rəhbərliyi ilə bu istiqamətdə ardıcıl tədbirlər həyata keçirildi. Sonrakı illərdə Azərbaycan Ordusunun vahid komandanlıq prinsipi əsasında formalaşdırılması, hərbi kadrların hazırlanması, ordunun maddi-texniki bazasının gücləndirilməsi və şəxsi heyətin döyüş hazırlığının yüksəldilməsi dövlət siyasətinin prioritet istiqamətlərindən birinə çevrildi. Prezident İlham Əliyev də 2021-ci ildə Hərbi Qənimətlər Parkının açılışında çıxış edərkən vurğulamışdı ki, Heydər Əliyev 1993-cü ildə hakimiyyətə gəldikdən sonra qanunsuz silahlı birləşmələr tərk-silah edildi, sabitlik və qayda-qanun yaradıldı və nizami ordu quruculuğuna başlanıldı.



Ümummilli Lider Heydər Əliyevin orduya münasibətinin əsasında əsgər və zabitin dövlət üçün olduqca vacib olması prinsipi dayanırdı. 1994-cü il yanvarın 24-də cəbhəyə yola düşən hərbi hissənin şəxsi heyətinə müraciətində söylədiyi “Ümumi qələbəmiz sizin hər birinizin fəaliyyətindən, qəhrəmanlığından asılıdır” sözləri onun orduya verdiyi dəyərin ən gözəl ifadəsidir. Bu yanaşmada qələbə anlayışı təkcə silah və texnika ilə deyil, hərbçinin peşəkarlığı, cəsarəti, məsuliyyəti və Vətənə sədaqəti ilə əlaqələndirilirdi.

Sonrakı illərdə Azərbaycan dövlətinin qarşısında duran əsas məqsədlərdən biri ordunun daha da gücləndirilməsi oldu. Bu istiqamətdə həyata keçirilən siyasət artıq yalnız mövcud problemlərin aradan qaldırılmasına deyil, gələcək təhlükələrə qarşı hazırlıqlı, müasir və yüksək döyüş qabiliyyətinə malik Azərbaycan Ordusunun formalaşdırılmasına yönəldi.

2003-cü ildən sonra bu xətt yeni mərhələdə davam etdirildi. Prezident, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev ordu quruculuğunu dövlət siyasətinin əsas istiqamətlərindən biri kimi müəyyənləşdirdi. Hərbi infrastrukturun yenilənməsi, ordunun müasir silah və texnika ilə təchiz edilməsi, şəxsi heyətin hazırlığının artırılması və peşəkar hərbi kadrların yetişdirilməsi istiqamətində genişmiqyaslı işlər görüldü.



Bu hazırlığın nəticələri müxtəlif mərhələlərdə özünü göstərdi. 2016-cı ilin Aprel döyüşləri Azərbaycan Ordusunun döyüş qabiliyyətinin mühüm göstəricilərindən birinə çevrildi. 2020-ci ildə isə artıq qarşıya qoyulan tarixi vəzifənin həyata keçirilməsi üçün güclü hərbi-siyasi və iqtisadi baza formalaşmışdı.

2020-ci il sentyabrın 27-də Ermənistanın genişmiqyaslı hərbi təxribatlarına cavab olaraq başlayan Vətən müharibəsi Azərbaycanın dövlətçilik tarixində yeni səhifə açdı. 44 gün davam edən müharibədə Azərbaycan Ordusu yüksək peşəkarlıq, döyüş ruhu və qəhrəmanlıq nümayiş etdirdi. Cəbrayıl, Füzuli, Zəngilan, Qubadlı rayonları, Hadrut, Suqovuşan və Şuşa daxil olmaqla, 300-dən çox yaşayış məntəqəsi hərbi yolla azad edildi, noyabrın 10-da üçtərəfli Bəyanatın imzalandı.

Noyabrın 8-də Şuşanın azad edilməsi müharibənin taleyində həlledici dönüş yaratdı. Bundan sonra Ermənistan kapitulyasiya aktını imzalamağa məcbur oldu. Prezident İlham Əliyevin sözləri ilə desək, 44 gün ərzində Azərbaycan Ordusu döyüş meydanında Zəfər qazandı və düşmən kapitulyasiya aktına imza atdı.

44 günlük Vətən müharibəsinin Zəfəri bir gündə yaranmadı. Bu qələbənin arxasında illərlə aparılan dövlət quruculuğu, ordu quruculuğu, iqtisadi inkişaf, hərbi kadr hazırlığı, vətənpərvərlik tərbiyəsi və beynəlxalq mövqelərin möhkəmləndirilməsi dayanırdı. Prezident İlham Əliyev də Zəfər Parkının açılışında bu amilləri bir-biri ilə əlaqələndirərək Azərbaycanın qələbəsinə güclü ordunun, iqtisadi inkişafın, xalq-iqtidar birliyinin və vətənpərvərlik ruhunun təsir etdiyini vurğulayıb.

Bu tarixi yolun davamında 1993-cü ildən etibarən güclü dövlət və nizami ordu quruculuğu həyata keçirildi. Daha sonra bu siyasət davam etdirilərək Azərbaycan Ordusu müasir hərbi imkanlara və yüksək döyüş hazırlığına malik hərbi qüvvəyə çevrildi. 2020-ci ilin 44 günlük Vətən müharibəsində isə görülən bu tədbirlər real döyüş meydanında öz təsdiqini tapdı.

**Hüsniyyə NƏSİROVA**
**“Azərbaycan Ordusu”**

# Türkiyədə təhsilini bitirən Azərbaycan Ordusunun hərbi qulluqçularına diplomlar təqdim edilib



Azərbaycan Ordusunun hərbi qulluqçuları Türkiyənin Milli Müdafiə Universitetinin Hərbi Dəniz Qüvvələri üzrə Gizir Hazırlığı Məktəbində təhsillərini uğurla başa vurublar.

Müdafiə Nazirliyi xəbər verir ki, Yalova vilayətində keçirilən mərasimdə Türkiyə Respublikası Hərbi Dəniz Donanmasının rəhbər heyəti, rəsmi qonaqlar, məktəbin müəllim-professor heyəti və məzunların ailə üzvləri iştirak ediblər.

Hərbi qulluqçularımız ölkələrimiz arasında hərbi təhsil sahəsində mövcud müqaviləyə əsasən, Türkiyənin Milli Müdafiə Universitetinin Hərbi Dəniz Qüvvələri üzrə Gizir Hazırlığı Məktəbində təhsil alırlar. Təhsil ocağı 2 illik hərbi təhsil proqramı üzrə Türkiyə Hərbi Dəniz Qüvvələri üçün miçman kadrlarının hazırlanmasında mühüm rol oynayır.



Tədbirdə Azərbaycanın Türkiyədəki hərbi attaşelik aparatının nümayəndələri iştirak edərək miçman rütbələri almış 5 hərbi qulluqçumuzu təbrik edib, onlara gələcək xidmətlərində uğurlar arzulayıblar.

# Vətən qarşısında məsuliyyət cinslə ölçülmür



(Əvvəli 1-ci səhifədə)

Peşəkarlıq, intizam, cəsarət, bilik və sədaqət isə hərbi xidmətin universal meyarlarıdır. Bu yanaşma müasir Azərbaycan Ordusunda da öz ifadəsini tapır. Azərbaycan qadınının Vətənin müdafiəsində iştirakı isə yeni hadisə deyil. Xalqımızın tarixində qadının cəmiyyətin həyatında, dövlətçilik ənənələrində və milli-mənəvi dəyərlərin qorunmasında mühüm rolu olub. Azərbaycan qadını müxtəlif dövrlərdə ailənin dayağı olmaqla yanaşı, ictimai proseslərdə fəallığı, savadı, iradəsi və vətənpərvərliyi ilə də iştirak edib, seçilib. Müasir dövrdə bu ənənə hərbi xidmət sahəsində də davam etdirilir.

Azərbaycan Ordusunda qadın hərbi qulluqçular müxtəlif qoşun növlərində, hərbi tibb müəssisələrində, xüsusi təyinatlı təhsil müəssisələrində və digər sahələrdə xidmət edirlər. Qadın hərbi qulluqçuların təlim-məşq toplantılarına, nəzəri dərslərə və praktiki məşğələlərə cəlb olunduğu, müxtəlif ixtisaslar üzrə hazırlıq keçdiyi və uyğun vəzifələrə təyin edildiyi qeyd olunur. Burada söhbət sadəcə onların ordu sıralarında təmsil olunmasından getmir. Məsələnin mahiyyəti onların bilik və bacarıqlarını reallaşdırmaları üçün bərabər imkanların yaradılmasıdır. Çünki müasir ordu strukturu sadəcə fiziki gücə əsaslanmır. Texnologiya, rabitə, tibb, informasiya təminatı, idarəetmə, psixoloji hazırlıq, təhsil və digər istiqamətlər də yüksək peşəkarlıq tələb edir. Bu sahələrin hər birində insanın cinsindən daha çox onun hazırlığı və məsuliyyət hissi əhəmiyyət daşıyır. Gender bərabərliyi də məhz bu nöqtədə hərbi xidmət anlayışı ilə kəsişir. Qeyd etmək yerinə düşər ki, orduda gender bərabərliyi qadın və kişilər arasında fərqlərin inkar edilməsi demək deyil. Əksinə, əsas məqsəd hərbi xidmətin tələb etdiyi meyarların bütün şəxslərə obyektiv və ədalətli şəkildə tətbiq olunması, hüquq və imkanların da bərabərliyin qorunmasıdır. Hərbi intizam hamı üçün eynidir. Vətən qarşısında məsuliyyət də.

Müasir Azərbaycan Ordusunun əsas üstünlüklərindən biri də insan kapitalının imkanlarından səmərəli istifadə edilməsidir. Döyüş hazırlığı yüksək olan ordu müasir silahları idarə edən, texnikaları işlədən, qərar qəbul edən, yaralıya yardım göstərən, rabitəni təmin edən, informasiya axınını idarə edən və qarşısına qoyulan tapşırığı dəqiq yerinə yetirən şəxsi heyətdən güc alır. Bu baxımdan qadın hərbi qulluqçuların xidmətini yalnız "qadınların orduda iştirakı" kimi təqdim etmək də məsələnin mahiyyətini daraldır. Onlar Azərbaycan Ordusunun şəxsi heyətinin bir hissəsidir. Hər bir hərbi qulluqçu kimi, qadınların da xidməti nəticə, intizam və peşəkarlıq meyarları ilə qiymətləndirilir.

44 günlük Vətən müharibəsi də Azərbaycan qadınının dövlət və ordu qarşısındakı məsuliyyətini bir daha nümayiş etdirdi. Həmin günlərdə qadınlar həm hərbi qulluqçu, həm tibb işçisi, həm təminat və digər istiqamətlərdə çalışan mütəxəssis kimi müxtəlif vəzifələrdə fəaliyyət göstərdilər. Müharibənin reallığı insanlara bir daha göstərdi ki, Vətənin müdafiəsi yalnız səngərdə silahla dayanmaqdan ibarət deyil. Döyüş meydanındakı hər bir uğurun arxasında böyük və mürəkkəb təminat sistemi dayanır. Həkim, rabitəçi, mühəndis, psixoloq, logistika mütəxəssisi, qərargah əməkdaşı, informasiya sahəsində çalışan mütəxəssis və bir çox başqa peşə sahibləri ümumi hərbi mexanizmin ayrılmaz hissəsidir. Bu mənada gender bərabərliyi ordunun imkanlarını genişləndirən yanaşmalardan biri kimi qiymətləndirilə bilər. Çünki məqsəd süni şəkildə statistika yaratmaq yox, ordunun qarşısında duran vəzifələrin yerinə yetirilməsi üçün mövcud insan resurslarından maksimum səmərə ilə istifadə etməkdir.

Ümumiləşdirsək, geyim formasının rəngi, rütbə ulduzlarının ölçüsü, hərbi nizamın tələbləri hamı üçün eynidir. Daşınan rütbə isə insanın qadın və ya kişi olduğunu deyil, onun xidmətə münasibət səviyyəsini göstərir. Hərbi forma şəxsi xüsusiyyətlərdən daha böyük məsuliyyət olan Vətənə xidmətin simvoludur. Gender bərabərliyinin mahiyyəti də məhz burada görünür. Bərabərlik eynilik deyil. Qadınla kişinin fiziki xüsusiyyətlərinin fərqli olması təbiidir. Lakin hüquq, ləyaqət, peşəkarlığa hörmət və xidmətdə özünü göstərmək imkanı baxımından ayrı-seçkiliyə yol verilməməsi müasir hərbi idarəetmənin mühüm prinsiplərindən biridir.

Yazının əvvəlində qeyd etdiyimiz tarixi şəxslərə qayıdaq. Tomrisin qarşısında öz xalqının taleyi dayanmışdı. Janna d'Arkın qarşısında isə işğal və müharibə şəraitində öz ölkəsinin gələcəyi. Onların yaşadığı dövr, istifadə etdikləri silahlar və hərbi sistemlər müasir Azərbaycan Ordusundan tamamilə fərqlidir. Lakin aradakı əsrlərə baxmayaraq, dəyişməyən məqam təhlükə qarşısında məsuliyyət daşımaq və xalqının müdafiəsinə töhfə verməkdir. Azərbaycan Ordusunda xidmət edən qadınlar da bu böyük tarixi ənənənin müasir davamçılarıdır. Bu gün Azərbaycan Ordusu qarşısında dayanan əsas məqsəd güclü, müasir, peşəkar və yüksək döyüş hazırlığına malik ordu quruculuğunu davam etdirməkdir. Belə bir orduda hər bir hərbi qulluqçunun potensialından səmərəli istifadə edilməsi vacibdir. Qadınların xidmət imkanlarının genişləndirilməsi də bu prosesin tərkib hissəsidir.

Əslində, orduda gender bərabərliyinin ən yaxşı göstəricisi qadın hərbi qulluqçunun qadın olduğuna görə deyil, hərbi qulluqçu olduğuna görə qiymətləndirilməsidir. Çünki hərbi xidmətin öz dili var: əmr, intizam, məsuliyyət, sədaqət, peşəkarlıq və şərəf. Bu sözlərin heç birinin qarşısında "qadın" və ya "kişi" qeydi yoxdur. Tarixdə Tomris, Janna d'Ark və onların ardınca gələn yüzlərlə qadının həyat yolu da bunu göstərir. Qəhrəmanlığın cinsi yoxdur. Vətən qarşısında borcun da.



Qeyd edim ki, son illərdə Azərbaycan Ordusunda qadınların hərbi təhsil və peşəkar inkişaf imkanlarının genişləndirilməsi istiqamətində də addımlar atılır. Buna nümunə olaraq 2025–2026-cı tədris ilindən etibarən Heydər Əliyev adına Hərbi İnstitutda uzunmüddətli fasilədən sonra yenidən qadın kursantların qəbuluna başlanılmasıdır. Beləliklə, Azərbaycan Ordusunda qadın hərbi qulluqçuların fəaliyyəti artıq ayrıca hadisə kimi deyil, ordunun ümumi xidmət sisteminin hərbi təhsil konsepsiyasının bir hissəsi kimi qəbul edilir. Qarşıdakı illərdə onların təhsil, peşəkar inkişaf və xidmət imkanlarının daha da genişlənməsi Azərbaycan Ordusunun insan resurslarının gücləndirilməsinə xidmət edəcək. Çünki güclü ordu yalnız güclü silahlardan qurulmur. Güclü ordu insanın öz imkanlarını Vətənin müdafiəsinə həsr edə bildiyi, əməyinin və peşəkarlığının obyektiv qiymətləndirildiyi, hüquq və məsuliyyətin paralel şəkildə qorunduğu ordudur. Və hərbi formada xidmət edən qadın hərbçi bu həqiqətin canlı ifadəsidir: Vətəni qorumaq üçün ilk növbədə insanın cəsarəti, biliyi və sədaqəti lazımdır.

**Leytenant**
**Tamilla HÜSEYNLİ**
**"Azərbaycan Ordusu"**

---

*Tikdim ki, izim qala...*

# Dördkünc Mərdəkan qəsri

(Əvvəli 1-ci səhifədə)

Etimoloji baxımından Mərdəkan qəsəbəsi "Mərd" kişi, "kan" isə yer adı ilə uzlaşdırılır. Tarixçilərin bəziləri isə xəzərsahili bölgələrdə yaşamış Mard tayfalarının adı ilə bağlı olduğunu güman edirlər. Qəsrin memarlıq quruluşu onun hərbi məqsədlə inşa edildiyini aydın şəkildə göstərir. Dördkünc planlı istehkam möhkəm qala divarları ilə əhatələnib. Divarların künclərində və ayrı-ayrı hissələrində yerləşdirilən yarımdairəvi qüllələr müdafiə sisteminin əsas elementlərini təşkil edib. Təxminən 6-7 metr hündürlüyündə olan qala divarlarının qalınlığı aşağı hissədə 2,10 yuxarı hissədə 1,6 metrə çatır. Bu göstəricilər istehkamın xarici hücumlara qarşı davamlılığının təmin edilməsinə xüsusi diqqət yetirildiyini göstərir.Qəsrin mərkəzində yüksələn əsas qüllə isə tikilinin ən diqqətçəkən hissəsidir. 22 metr hündürlüyündə olan qüllə beş yarusdan, yəni, beş mərtəbədən ibarətdir. Qüllənin hündürlüyü ətraf əraziyə geniş müşahidə imkanı yaradırdı. Orta əsrlərin hərbi şəraitində bu, istehkam üçün mühüm üstünlük hesab olunurdu. Ətrafda baş verən hərəkətlərin əvvəlcədən müşahidə edilməsi təhlükəyə hazırlıq görülməsinə imkan verirdi.

Qalanın ətrafında qayada qazılmış 30-a qədər quyu aşkar edilmişdir. Araşdırmalar nəticəsində məlum olmuşdur ki, bu quyular qalanın müdafiəçiləri üçün taxıl anbarları imiş. Divarların qalınlığı, qüllələrin yerləşməsi və mərkəzi qüllənin hündürlüyü təsadüfi memarlıq həlli deyil, müdafiə ehtiyaclarından irəli gələn vahid quruluşun göstəricisidir. Mərdəkan qəsrinin əhəmiyyəti onun yalnız ayrıca istehkam kimi mövcudluğu ilə məhdudlaşmır. Abşeron yarımadasının müxtəlif yaşayış məntəqələrində yerləşən qalalar və müdafiə qurğuları yarımadanın orta əsr müdafiə sisteminin tərkib hissəsini təşkil edirdi. Dördkünc Mərdəkan qəsri də bu sistemdə müşahidə, müdafiə və təhlükə zamanı sığınacaq funksiyalarını yerinə yetirən mühüm qurğulardan biri olub.



Abidənin tarixinin öyrənilməsində kitabələr xüsusi əhəmiyyət daşıyır. Daş üzərində həkk olunmuş yazılar qəsrin hansı dövrə aid olduğunu müəyyənləşdirməyə imkan verir. Bu baxımdan Mərdəkan qəsri öz memarlıq xüsusiyyətləri ilə yanaşı, üzərində qorunan epiqrafik məlumatlara görə də qiymətli tarixi mənbə hesab olunur.

Mərdəkan istehkamlarının tarixi əhəmiyyəti beynəlxalq səviyyədə də nəzərə alınıb. 2001-ci ildə Mərdəkan istehkamları "Xəzəryanı müdafiə qurğuları" nominasiyası çərçivəsində UNESCO-nun Ümumdünya İrsinin İlkin (Ehtiyat) Siyahısına daxil edilib. Burada mühüm məqam ondan ibarətdir ki, söhbət UNESCO-nun əsas Ümumdünya İrs Siyahısından deyil, İlkin Siyahıdan gedir. Bu status Mərdəkan istehkamlarının Azərbaycanla yanaşı, beynəlxalq mədəni irs baxımından da önəmli olduğunu göstərir. Dördkünc Mərdəkan qəsri dövlət tərəfindən qorunan tarix və mədəniyyət abidələrindəndir. Azərbaycanda qədim tarixi-memarlıq nümunələrinin qorunması, onların vəziyyətinin nəzarətdə saxlanılması və gələcək nəsillərə çatdırılması istiqamətində həyata keçirilən tədbirlər milli irsin mühafizəsinin mühüm tərkib hissəsidir. Mərdəkan qəsrinin də qorunaraq bu günə çatdırılması həmin yanaşmanın əhəmiyyətini göstərir.

Qəsrin bugünkü görünüşündə XII əsrin sonlarında formalaşdırılmış əsas memarlıq xüsusiyyətləri aydın görünür. Möhkəm divarlar, müdafiə qüllələri, mərkəzi hündür qüllə və daxili planlaşdırma bir dövrün istehkam quruculuğu haqqında dolğun təsəvvür yaradır. Dördkünc Mərdəkan qəsri və ya Böyük Mərdəkan qəsri bu gün Abşeronun tarixi-memarlıq mənzərəsində özünəməxsus yer tutur. XII əsrin sonlarında müdafiə məqsədilə inşa edilən bu istehkamın günümüzədək qorunması Azərbaycan tarixinin mühüm mərhələlərindən birinin maddi izlərinin yaşadılması baxımından əhəmiyyətlidir.

**Emil MURADLI**
**"Azərbaycan Ordusu"**

# Beynəlxalq hərbi təhsil sistemi: oxşar metodlar, fərqli yanaşmalar

(Əvvəli 1-ci səhifədə)

Sağlam həyat tərzinə maraq yaradır. Eyni zamanda, çətin vəziyyətlərdə düzgün qərar vermək, liderlik keyfiyyətlərini inkişaf etdirmək və stresə davamlı olmaq kimi bacarıqlar da formalaşır. Gənclərin enerjisi aşıb-daşır, yeniyetməlik dövründə çox aktiv olurlar. Bəzən ümumi qəbul olunmuş davranış qaydalarından kənar hallar da baş verə bilir. Yeniyetmə ilə dil tapmaq çətinləşir. Elə hal da olur ki, gənc ətraf aləmdən qopub öz otağına qapanır, saatlarla kompüter arxasında oturur. Belə uşaqların valideynləri ciddi qaydalar tətbiq etməyə çalışsalar da gənc nəsillə ünsiyyət qura bilmədiklərindən gileylənirlər. Elə valideynlər var ki, çıxış yolunu övladlarını hərbi məktəbə verməkdə görürlər. Hərbi təhsil bu cür gənclərin potensialını düzgün istiqamətə yönəltməyə dəstək verir.



Hərbi məktəblər zabit və hərbi mütəxəssislərin hazırlanması üçün fəaliyyət göstərən təhsil müəssisələridir. Bu məktəblərdə kursantlar həm nəzəri biliklər, həm də praktiki hərbi hazırlıq keçirlər. Tədris proqramına ixtisas, taktika, fiziki hazırlıq, silah sistemləri, hərbi hüquq və təhlükəsizlik kimi fənlər daxildir.

Hərbi məktəblərə qəbul qaydaları ölkədən asılı olaraq fərqlənir. Adətən namizədlər təhsil haqqında sənədi təqdim etməli, fiziki hazırlıq normativlərini yerinə yetirməli, tibbi müayinədən keçməli və qəbul imtahanlarında uğur qazanmalıdırlar. Məqsəd peşəkar, intizamlı, Vətənə xidmət etməyə hazır və yüksək liderlik bacarıqlarına malik zabitlər yetişdirməkdir. Bu məktəblərin məzunları quru qoşunları, hava qüvvələri, dəniz qüvvələri və digər təhlükəsizlik qurumlarında xidmət edirlər.

Hərbi təhsilin tarixi çox qədimdir. Keçmişdə hökmdarlar öz ordularını hazırlamaq üçün xüsusi təlim mərkəzləri yaradırdılar. Zaman keçdikcə bu mərkəzlər inkişaf edərək hərbi akademiyalara çevrildi. XVIII-XIX əsrlərdə Avropa ölkələrində ilk müasir hərbi məktəblər yaradıldı. Sonralar bu təcrübə dünyanın digər ölkələrində də geniş yayıldı. Qədim dövrdə hərbi məktəb dedikdə, müasir mənada parta arxasında keçirilən dərslər yox, dövlətlərin gəncləri əsgər və sərkərdə kimi yetişdirmək üçün yaratdığı sərt tərbiyə və məşq sistemləri nəzərdə tutulurdu. Ən tanınmış nümunələr Sparta, Qədim Roma və qədim Şərq ölkələrində mövcud idi.

Yunanıstanın Sparta şəhərində uşaqlar 7 yaşından ailədən alınır və dövlət tərəfindən idarə olunan sərt hərbi məktəbə-“agoge”yə verilirdi. Burada gənclərə az yemək verilir, soyuqda yaşamaq, ayaqyalın gəzmək və ağrıya dözmək öyrədilirdi. Əsas diqqət qılıncoynatmağa, nizə atmağa, falanqa düzülüşü ilə vuruşmağa və qısa, konkret danışmağa (lakonik nitq) yönəldilirdi. Romada ayrıca nəzəri hərbi məktəblər olmasa da, hər bir yeni əsgər düşərgələrdə (kastrum) aylarla ağır məşqlərdən keçirdi. Əsgərlər ikiqat ağır taxta qılınclarla döyüşməyi, hər gün tam təchizatla uzun məsafələrə qaçmağı və hərbi intizamı öyrənirdilər. Gənc aristokratlar (tribunlar və sərkərdələr) əvvəlcə sadə əsgər kimi xidmət edir, sonra təcrübə qazanaraq komandir olurdular.

Qədim Misir, Assur və Çində hərbi elmlər sarayda zadəgan övladlarına xüsusi müəllimlər tərəfindən öyrədilirdi. Çində e.ə. VI əsrdə Sun Szin kimi sərkərdələrin yazdığı “Müharibə sənəti” traktatları gələcək komandirlərə taktika, qoşun idarəetmə qaydalarını öyrədən əsas dərs vəsaiti idi.




Bu gün dünyada bir çox nüfuzlu hərbi akademiya fəaliyyət göstərir.

ABŞ-da yerləşən Vest Point Hərbi Akademiyası (devizi “Duty.Honor.County” tərcümədə “Borc, Şərəf, Vətən”) 1802-ci ildə yaradılıb və dünyanın ən məşhur hərbi məktəblərindən biri hesab olunur. Bu akademiyanın məzunları arasında tanınmış generallar, dövlət xadimləri və mühəndislər var. Burada ABŞ ordusu üçün peşəkar zabitlər hazırlanır.

Böyük Britaniyanın Royal Military Academy Sandhurst Akademiyası (Sandherst Kral Hərbi Akademiyası) (devizi: “Serve to lead” tərcümədə “Rəhbərlik etmək üçün xidmət etmək”.) yüksək səviyyəli zabit hazırlığı ilə tanınır və müxtəlif ölkələrdən kursantlar burada təhsil alır.

Fransada yerləşən 1802-ci ildə Napoleon tərəfindən yaradılmış Ecole Speciale Militaire de Saint-Cyr (Sen-Sir Xüsusi Hərbi Məktəbi) (devizi: “ILs s”instruisent pour vaincre” tərcümədə “Onlar qalib gəlmək üçün öyrənirlər”) akademiyası Avropanın ən qədim və nüfuzlu hərbi akademiyalarından biridir. Zabit hazırlığı müasir standartlara uyğun təşkil edilir.

Türkiyənin Milli Müdafiə Universiteti (Mekteb-i Harbiye-i Şahane) 1834-ci ildə yaranıb. (devizi: “Şanlı keçmiş, Şerefli görev, Saygın bir gelecek”) Quru qoşunları, hava və dəniz qüvvələri üçün zabitlər hazırlayır. Tədris proqramı NATO standartlarına uyğun qurulmuşdur. Həyatı boyu bir neçə müharibədə iştirak etmiş Qazi Mustafa Kamal Atatürk də burada hərbi təhsil almış, marşal rütbəsinə qədər yüksəlmişdir.

Ümummilli Lider Heydər Əliyev adına Hərbi İnstitutunun tarixi 1918-ci il fevralın 6-da Müsəlman Korpusunun komandiri general-leytenant Əlağa Şıxlinskinin bolşevik inqilabından sonra Cənubi Qafqazda legitim hakimiyyət orqanı olan Zaqafqaziya komissarlığına məktubla müraciət etməsi və Milli Hərbiyyə Məktəbinin açılması haqqında icazə istəməsi ilə başlayır. Milli Hərbiyyə Məktəbinin ilk məzunu 156 nəfər olduğu məlumdur. Cümhuriyyət Ordusu piyada, artilleriya və süvari ixtisasları ilə yeni milli zabit kadr heyətinə yiyələnmiş oldu. Bu zabitlərin hərbi hissələrə təyinatı Xalq Cümhuriyyətinin Hərb Nazirliyinin bərpasından sonra baş verdi. Vətən Müharibəsi Qəhrəmanları və Azərbaycanın Milli Qəhrəmanları arasında bu məktəbin məzunu olanlar var.




Pakistan Hərbi Məktəbi (PMA) Kakul şəhərində yerləşir. Əsası 1947-ci ilin noyabr ayında qoyulub. (Devizi “Allahdan zəfər və yaxın olan qələbə”). Bu akademiyada 34 ölkədən xarici tələbələr təhsil alıb. Zabit olmaq istəyən gənclərə hər semestr artan fiziki hazırlıq tələb olunur. Dözümlülüyü yoxlamaq üçün kursantdan çiynində ağır yüklə dağı aşmaq tələb olunur. Ardınca maneə xəttini silah-sursatla keçməlidir. Ciddi sınaqlar gələcək zabitin dözümlülüyünü və gücünü yoxlamaq məqsədi daşıyır.

Çinin Xalq Azadlığı Ordusu (devizi “Xalqa xidmət edirik”) Hərbi Elmlər Akademiyası yüksək səviyyəli hərbi tədqiqat və strateji araşdırmalar mərkəzidir. 1958-ci ildə Pekində təsis edilmiş bu akademiya vasitəsilə Çin mərkəzi hərbi komissiyasına tabedir və ölkənin müdafiə siyasətinin, hərbi doktrinalarının və müasir hərb texnologiyalarının formalaşdırılmasında əsas rol oynayır.



Azərbaycanın Türkiyə və Pakistanla hərbi əlaqələri müdafiə sənayesi, birgə təlimlər və texnoloji əməkdaşlıq üzərində qurulmuş strateji tərəfdaşlığa dayanır. Hər üç ölkənin xüsusi təyinatlılarının iştirakı ilə keçirilən “Üç qardaş” kimi birgə hərbi təlimlər döyüş hazırlığının artırılmasına xidmət edir. Çin ilə hərbi sahədə münasibətlər daha çox müdafiə texnologiyaları və hərbi təhsil çərçivəsində inkişaf edir.

İtaliya quru qoşunlarında xidmət edən zabitlərin təhsil aldığı Turin Hərbi Akademiyası Turin şəhərində yerləşən hərbi tipli ali məktəbdir. Əsası 1739-cu ildə qoyulan tam hərbi təhsil ocağı, Apennin yarımadası və avropada ən qədim universitetlərdən biridir. (Devizi “Doctrinas bello aptare” latından tərcümədə “Nəzəriyyələri müharibəyə uyğunlaşdırmaq” mənasını verir)

Hərbi məktəblərdə təhsil nəzəri və praktiki hazırlıqdan ibarətdir. Kursantlar hərbi strategiya, taktika, topoqrafiya, rabitə, hərbi hüquq, beynəlxalq münasibətlər, informatika, xarici dillər və liderlik kimi fənləri öyrənirlər. Bununla yanaşı, fiziki hazırlıq, atıcılıq, səhra təlimləri, döyüş hazırlığı və fövqəladə hallarda davranış qaydaları da tədris olunur. Müasir hərbi məktəblərdə pilotsuz uçuş aparatları, kibertəhlükəsizlik, süni intellekt, hərbi robot texnikası və müasir informasiya texnologiyaları da öyrədilir. Bu isə gələcək zabitlərin müasir döyüş şəraitinə daha yaxşı hazırlığına kömək edir.

Texnologiyanın inkişafı hərbi təhsili də dəyişdirib. Bu gün kursantlar virtual reallıq simulyatorlarında döyüş məşqləri keçir, pilotsuz uçuş aparatlarını idarə etməyi öyrənir, kibertəhlükəsizlik sahəsində biliklər əldə edirlər. Süni intellekt, peyk rabitəsi, robot texnikası və rəqəmsal xəritələr müasir hərbi hazırlığın ayrılmaz hissəsinə çevrilib. Bu yeniliklər zabitlərin döyüş şəraitində daha sürətli və düzgün qərar qəbul etməsinə kömək edir.

Hərbi məktəblər dövlətin müdafiə gücünün formalaşmasında mühüm rol oynayır. Burada peşəkar, savadlı, intizamlı və vətəninə sadiq zabitlər hazırlanır. Müasir texnologiyaların tətbiqi hərbi təhsili daha da inkişaf etdirir və gələcəyin təhlükəsizlik çağırışlarına cavab verə biləcək mütəxəssislərin yetişdirilməsinə imkan yaradır. Buna görə də hərbi məktəblər hər bir ölkənin inkişafı və təhlükəsizliyi üçün strateji əhəmiyyət daşıyır.

Güclü dövlətin və sağlam cəmiyyətin təməli məhz savadlı, vətənini sevən və yüksək mənəvi keyfiyyətlərə malik gənclərdir. Buna görə də hərbi təhsilin məktəblərdə tədrisi və inkişafı mühüm əhəmiyyət kəsb edir.

**Sevda AŞIROVA**
**“Azərbaycan Ordusu”**

Milli Qəhrəmanlarımız

# “Bizim işimiz haqq işidir, qələbə çalacağıq!”

(Əvvəli 1-ci səhifədə)

1979-1981-ci illərdə Ədliyyə Nazirliyində çalışıb. İşlədiyi müddətdə kollektivin dərin hörmətini qazanıb. Lakin Riadın ürəyində arzuları başqa idi... Çalışdığı iş heç də üreyincə deyildi. Onun ən böyük arzusu sərhədçi olmaq idi. Qəhrəmanımızın nəsil şəcərəsindən qısa qeydlərimi oxuculara təqdim edirəm. Riadın ata babası Həmid Əhmədov Qərbi Azərbaycanda doğulsa da, 1918-ci ildə erməni daşnaklarının təzyiqi altında Naxçıvana köçməyə məcbur olub. O, Azərbaycanın ilk sərhədçilərindən idi. Məhz bu peşədə o, “polkovnik-leytenant” rütbəsinəcən yüksəlib, ad-san qazanıb. Ana babası polkovnik-leytenant Məcid Məmmədov isə Böyük Vətən müharibəsində həlak olub. Döyüşlərdə göstərdiyi şücaət və igidliyə görə iki dəfə “Qırmızı Ulduz” ordeni, “Qırmızı Bayraq” ordeni və çoxlu sayda medallarla təltif edilib. Bax, elə buna görə də Riadın doğulub böyüdüyü ailədə hərbçi peşəsinə böyük hörmət bəslənilirdi. Arzusunu daima gerçəkləşdirməyə çalışan Riad, nəhayət, ali hərbi məktəbdə təhsilini davam etdirməyi qərara alır. 1982-ci ildə DTK-nın Minsk Ali Hərbi Məktəbinin müdavimi olan Riad Əhmədov Bakıya qayıdır və respublikamızın təhlükəsizlik orqanlarında xidmətə başlayır.

Torpaqlarımızda gedən müharibə bir zabit kimi onu rahat buraxmırdı. Elə buna görə də bütün bacarığını əsirgəmədən milli ordunun yaradılması işinə qoşulur.

Riad Əhmədov 1989-cu ildən etibarən tez-tez Qarabağın sərhəd bölgələrinə gedirdi. O, döyüşlərin fəal iştirakçısına çevrilmişdi. 1991-ci ildə erməni yaraqlılarının mühüm strateji dayaq məntəqələrindən biri sayılan Çaykəndin azad edilməsi əməliyyatında xüsusi igidlik göstərdiyinə görə yüksək mükafata layiq görülür. O, artıq “polkovnik-leytenant” rütbəsində idi…

1992-ci ilin yanvarı… Soyuq, sazaqlı bir qış günü... Xalqımızın qəhrəman oğlu keçmiş Əfqanıstan döyüşçülərini bir araya gətirərək xüsusi təyinatlı dəstə yaradır. Bu dəstə Şuşada, Goranboyda və Qarabağın digər



döyüş bölgələrində böyük uğurlar qazanır. 38 əməliyyatdan uğurla çıxan Riad Əhmədov düşmənin qorxulu yuxusuna çevrilən komandirlərdən biri kimi tanınır. 1992-ci ildə Müdafiə Nazirliyinin Kəşfiyyat İdarəsinin rəis müavini vəzifəsinə təyin edilir. Polkovnik-leytenant Riad Əhmədov Şuşaya göndərilir. Onlar əvvəlcədən planlaşdırılan “Daşaltı” əməliyyatında iştirak edəcəkdilər. Bu əməliyyat Daşaltıda sayca 4-cü əməliyyat sayılırdı. Əvvəlki 3 əməliyyatdan 2-si tamamilə baş tutmamış, birində isə düşmən xeyli itki ilə üzləşmişdi. Lakin kəndi azad etmək mümkün olmamışdı...

Yanvarın 26-sı… Daha bir çətin döyüş tapşırığı… Riad 11 nəfərlik kəşfiyyat qrupu ilə Şuşa-Laçın yolunun üstündə ən böyük maneə olan Daşaltı kəndinə yollanır. Vəziyyət gözləndiyindən də ağır idi... Qüvvələrin qeyri-bərabər olduğu bu döyüşdə Riad yaralı halda itkin düşür...

Daşaltı əməliyyatı zamanı zabitlərdən ibarət peşəkar qrup formalaşdırılıb. Bu dəstə böyük işlər görüb. Riadgil axşam saat 6-dan 11-ə kimi döyüşüblər. O, döyüş zamanı yaralansa da, bunu cəbhə yoldaşlarına hiss etdirməyib. Əsgərləri həvəsləndirmək üçün daim zarafatlar edib. Döyüş yoldaşları deyirlər ki, Riad döyüşə yaralı formada davam edib. Lakin getdikcə sayları azalırmış...

Döyüş yoldaşları onu da deyirlər ki, Riadın tez-tez işlətdiyi və ən çox sevdiyi ifadə “Bizim işimiz haqq işidir, qələbə çalacağıq!” olub. O, əsgərləri bu cümlə ilə döyüşə ruhlandırıb...

Torpaqlarımız işğaldan azad olunduqdan sonra 18 sentyabr 2023-cü ildə düz 31 il sonra Şuşa rayonunun Daşaltı kəndində aşkarlanan kütləvi məzarlıqda aparılan araşdırmalar zamanı, Azərbaycanın Milli Qəhrəmanı xalqımızın vətənpərvər oğlunun nəşinin qalıqları da tapılaraq Hərbi Memorial Məzarlıqda torpağa tapşırıldı.

Xalqımız qəhrəman oğlunun əziz xatirəsini daima dərin ehtiramla yad edir.

Qeyd edək ki, Riad Əhmədov 7 iyun 1992-ci ildə “Azərbaycanın Milli Qəhrəmanı” adına layiq görülüb. Bakı şəhərindəki 203 nömrəli tam orta məktəb onun adını daşıyır. Onun şərəfli döyüş yolunu əks etdirən "İgidnamə" sənədli, "Qayıt Riad" bədii-sənədli və "İtirdiyimiz qəhrəman” filmi çəkilib.

Riad Əhmədovun 2 övladı Vətənə yadigar qalıb.

Bizi Qarabağ döyüşlərindən illər ayırsa da, Riad kimi qəhrəman oğulların ömrü dastanlara dönüb daima oxunacaq...

**Lalə HÜSEYNOVA**
**“Azərbaycan Ordusu”**

# “Əfsanəyə dönən ömür – Əli” kitabının təqdimatı keçirilib



Şərur rayon Mədəniyyət Evində Vətənimizin suverenliyi və ərazi bütövlüyü uğrunda canından keçmiş şəhid baş leytenant Əli Cavad oğlu Əliyevin doğum günü münasibətilə xatirəsinə həsr olunmuş, “Şərq qapısı” qəzetinin humanitar-siyasət şöbəsinin müdiri Ramiyə Əkbərovanın qələmə aldığı “Əfsanəyə dönən ömür – Əli” kitabının təqdimat mərasimi keçirilib.

Tədbir Azərbaycan Respublikasının Dövlət Himninin səsləndirilməsi ilə başlayıb. Sonra ölkəmizin azadlığı, ərazi bütövlüyü və suverenliyi uğrunda canından keçmiş şəhidlərin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib, Qurani-Kərimdən ayələr oxunaraq dualar edilib.

Mərasimdə Şərur rayon İcra Hakimiyyətinin məsul şəxsləri, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatları, rayon ictimaiyyətinin nümayəndələri, şəhid ailələri, qazilər, Vətən müharibəsi iştirakçıları və “Naxçıvan Şəhid Ailələri” İctimai Birliyinin idarə heyətinin üzvləri iştirak ediblər.

Çıxışlarda cəsur döyüşçünün şərəfli ömür və döyüş yolu haqqında ətraflı məlumat verilib. Bildirilib ki, 1997-ci il sentyabrın 1-də Şərur rayonunun Yengicə kəndində anadan olan Əli Əliyev ilk təhsilini doğma kəndində alıb, 2012–2015-ci illərdə Heydər Əliyev adına Hərbi Liseydə, 2015–2019-cu illərdə isə Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbində (indiki Heydər Əliyev adına Hərbi İnstitut) təhsil alıb. 2019-cu ildə “leytenant” hərbi rütbəsi alaraq Xüsusi Təyinatlı Qüvvələrdə xidmətə başlayıb və sonralar “baş leytenant” rütbəsinə yüksəlib.

Qeyd olunub ki, Əli Əliyev 2020-ci il Vətən müharibəsində Tərtər, Ağdərə və Suqovuşan istiqamətlərində gedən döyüşlərdə iştirak edib. Vətən müharibəsindən sonra da döyüş fəaliyyətini davam etdirən qəhrəman zabit 2022-ci ilin martında Fərrux kəndi istiqamətində keçirilən əməliyyatda iştirak edib. Həmin ilin sentyabrında Ermənistan silahlı qüvvələrinin dövlət sərhədində törətdiyi genişmiqyaslı təxribatın qarşısının alınması zamanı keçirilən “Qisas” əməliyyatında 3099 yüksəkliyinin azad olunması uğrunda gedən döyüşdə şəhid olub.

Şəhid Əli Əliyev göstərdiyi şücaətə görə sağlığında “Azərbaycan Ordusunun 100 illiyi”, “Vətən müharibəsi iştirakçısı”, “Suqovuşanın azad olunmasına görə”, “Cəsur döyüşçü” və “Hərbi xidmətdə fərqlənməyə görə” medalları ilə təltif edilib. Ölümündən sonra isə “Azərbaycan Bayrağı” ordeni və “Vətən uğrunda” medalı ilə təltif olunub.

Natiqlər Əli Əliyevin yüksək vətənpərvərlik duyğularından, Vətənə və dövlətə sədaqətindən, zabit şərəfini hər zaman uca tutmasından söz açıblar. Ölkəmizdə formalaşan xalq-ordu birliyinin əhəmiyyəti vurğulanıb, şəhid ailələrinə və döyüş iştirakçılarına göstərilən dövlət qayğısından bəhs edilib.

Anım mərasimində şəhid Əli Əliyevin həyat və döyüş yolunu əks etdirən videoçarx nümayiş olunub.



Şəhidin valideynləri çıxış edərək kitabın müəllifi Ramiyə Əkbərovanı səhnəyə dəvət edib, Əlinin həyat və döyüş yolunun kitablaşdırılmasına, onun əziz xatirəsinin yaşadılmasına görə təşəkkürlərini bildiriblər.

Sonda yeni nəşr olunan kitab tədbir iştirakçılarına təqdim olunub. Mərasim xatirə fotosunun çəkdirilməsi ilə başa çatıb.



Qeyd edək ki, müəllif kitabda şəhidin həyatının müxtəlif mərhələləri, ailə üzvləri, ona orta məktəbdə ilk dərs deyən müəllimi, döyüş yoldaşları, tabeliyində olan əsgər və çavuşlarla aparılan söhbətlər geniş şəkildə öz əksini tapıb.

Sadə bir zabit bioqrafiyasından daha artıq məna daşıyan nəşrdə hadisələrin xronologiyası ilə yanaşı, Əli Əliyevin şəxsiyyətinin formalaşması, ailə tərbiyəsi, müəllim zəhməti, hərbi təhsil, Vətən sevgisi və zabit şərəfinin yaratdığı bütöv şəxsiyyət diqqətə çatdırılıb.

Kitabın ən təsirli məqamlarından biri isə Əlinin hələ orta məktəbdə oxuyarkən inşadakı yazdığı fikirlərdir: “Elə yaşa ki, öləndən sonra da ölmə! Əgər Vətən üçün ölmək lazımdırsa, qoy bu şərəfli ölüm mənim nəsibim olsun”.

**Bəxtiyar Əliyev**
**“Naxçıvan Şəhid Ailələri” İctimai Birliyinin mətbuat katibi**

# Milli Qəhrəman Kazımağa Kərimovun 75 illik yubileyi məzarı başında qeyd olunub




Azərbaycanın Milli Qəhrəmanı, Birinci Qarabağ müharibəsi şəhidi Kazımağa Möhsün oğlu Kərimovun anadan olmasının 75-ci ildönümü münasibətilə Şəhidlər xiyabanında anım mərasimi keçirilib.

AZƏRTAC xəbər verir ki, Milli Qəhrəmanın məzarı ziyarət olunub, üzərinə tər güllər düzülüb. Ulu Öndər Heydər Əliyevin və Azərbaycanın ərazi bütövlüyü və suverenliyi uğrunda canlarından keçmiş şəhidlərin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib, ruhlarına dualar oxunub.

Tədbirdə Kazımağa Kərimovun həyat və döyüş yolundan bəhs olunub. Qeyd olunub ki, Qubadlı rayonu torpaqlarımızın bütövlüyü uğrunda mübarizədə yüzlərlə şəhid verib. Bu şərəfli missiyada qəhrəmanlıq göstərən 11 qubadlılı Azərbaycanın Milli Qəhrəmanı adına layiq görülüb. Onların sırasında şücaəti ilə seçilən Kazımağa Kərimovun da adı xüsusi ehtiramla çəkilir. Bildirilib ki, 1951-ci il sentyabrın 1-də Qubadlı rayonunun Sarıyataq kəndində ziyalı ailəsində anadan olan Kazımağa Kərimov Azərbaycan Dövlət Universitetinin (indiki Bakı Dövlət Universiteti) Jurnalistika fakültəsində təhsil alıb. O, “Azərbaycan məktəbi” jurnalında və “Azərbaycan müəllimi” qəzetində çalışıb.

1988-ci ildə Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzü başlayanda Kazımağa Kərimov torpaqlarımızın müdafiəsinə qalxıb. Döyüş yolu Goranboydan keçən Kazımağa burada yaradılan ilk özünümüdafiə taborunun təşəbbüskarlarından biri olub və taborun formalaşmasında mühüm xidmətlər göstərib.

Kazımağa Kərimov 1992-ci il iyunun 12-13-də Goranboy rayonunun Ağcakənd qəsəbəsinin azad olunması uğrunda gedən döyüşlərdə ağır yaralansa da, rəhbərlik etdiyi əməliyyatın uğurla sona çatdırılmasını təmin edib. Əməliyyatdan sonra Bakıdakı hərbi hospitala çatdırılsa da, onun həyatını xilas etmək mümkün olmayıb. Milli Qəhrəman iyunun 15-də şəhid olub və iyunun 16-da Şəhidlər xiyabanında dəfn edilib. Ölümündən bir həftə sonra Azərbaycan Respublikası Prezidentinin Fərmanı ilə “Azərbaycanın Milli Qəhrəmanı” fəxri adı verilib. O, bu yüksək ada layiq görülən ilk azərbaycanlı jurnalist kimi tarixə düşüb.

Anım mərasimində torpaqlarımızın işğaldan azad olunmasından, Qarabağ və Şərqi Zəngəzurda həyata keçirilən genişmiqyaslı quruculuq işlərindən, eləcə də keçmiş məcburi köçkünlərin






mərhələli şəkildə doğma yurdlarına qayıdışından danışılıb. Qeyd olunub ki, şəhidlərimizin uğrunda canlarını fəda etdikləri doğma torpaqların azadlığına qovuşması, Qarabağ və Şərqi Zəngəzurda həyatın yenidən canlanması onların müqəddəs arzularının gerçəkləşməsi, ruhlarının şad olması və Vətən qarşısında şərəfli missiyalarının tamamlanması deməkdir.

Bildirilib ki, doğma torpaqların azad olunması şəhid ailələri üçün böyük mənəvi təsəlli və qürur mənbəyidir. Kazımağa Kərimovu tanıyanlar onun Vətənə bağlılığından, prinsipiallığından və döyüşlərdə göstərdiyi fədakarlıqdan söz açaraq xatirələrini bölüşüb, onun müdrikliyi, təmkinli xarakteri və insanlara münasibəti ilə seçildiyini bildiriblər. Qeyd olunub ki, o, ətrafındakı insanların öyündi-yi, məsləhətinə ehtiyac duyduğu və fikrinə dəyər verdiyi bir insan olub. Bu xüsusiyyətləri onun döyüş meydanındakı davranışında da özünü göstərib. Ağır yaralanmasına baxmayaraq, üzərinə götürdüyü tapşırığı sonadək yerinə yetirib, əməliyyat başa çatana qədər döyüş meydanını tərk etməyib. Onun üçün əsas məqsəd şəxsi təhlükəsizliyi deyil, qarşısına qoyulan tapşırığın uğurla tamamlanması olub.

Milli Qəhrəmanın oğlu Rəşad Kərimov isə atasının xatirəsinə göstərilən diqqət və ehtirama görə minnətdarlığını bildirib. O qeyd edib ki, şəhidlərin uğrunda canlarından keçdikləri torpaqların azad olunması, Qarabağ və Şərqi Zəngəzurda həyatın yenidən bərpa edilməsi şəhid ailələri üçün böyük qürur və mənəvi təsəllidir.

Qeyd edək ki, tədbir Qubadlı Rayon İcra Hakimiyyətinin təşkilatçılığı ilə keçirilib.

# “YAŞAT” Fondunun təşkilatçılığı ilə şəhid övladları Çanaqqalada



Bu barədə AZƏRTAC-a Prezident yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin İctimaiyyətlə əlaqələr şöbəsindən məlumat verilib.

Sentyabr 1-dən 7-dək həyata keçirilən layihədə 17-18 yaşlı 26 şəhid övladı iştirak edir. Əsas məqsəd psixoloji dayanıqlığın və şəxsi inkişafın dəstəklənməsi, asudə vaxtın səmərəli təşkili, həmçinin yeni dostluq və ünsiyyət imkanlarının yaradılmasıdır.

Layihə çərçivəsində iştirakçılar Türkiyənin tarixi və mədəni irsi ilə tanış olmaq məqsədilə müxtəlif məkanları ziyarət edirlər. İlk gündə iştirakçılar İstanbulda Qız qalasını ziyarət edib, “Valide Sultan” gəmisi ilə İstanbul boğazında gəzintidə iştirak ediblər. Sonra Sultan Əhməd məscidi və Ayasofya məbədi ziyarət olunub.




Növbəti gün iştirakçılar Çanaqqalanın tarixi və mədəni məkanları ilə tanış olublar. Proqram çərçivəsində Troya atı, Troya Milli Parkı, Troya muzeyi, Çanaqqala saat qülləsi, Aynalı bazar, Çanaqqala Dəniz Muzeyi və Çimənlik qalası ziyarət edilib. Şəhidimizin yadigarı Jalə Veyislinin doğum günü də qeyd olunub. Həmçinin iştirakçılar Türkiyənin tanınmış müğənnisi Özcan Dənizin konsertini də izləyiblər.

# Böyük Qayıdış: Daha 117 ailə Ağdam şəhərinə yola salınıb

***Prezident İlham Əliyevin tapşırığına uyğun olaraq, işğaldan azad edilmiş ərazilərə Böyük Qayıdış davam etdirilir.***

AZƏRTAC xəbər verir ki, bu mərhələdə 117 ailə - 362 nəfər Ağdam şəhərinə köçürülüb.

Doğma yurda qayıdan sakinlər hərtərəfli dövlət qayğısı ilə əhatə olunduqlarına görə Prezident İlham Əliyevə və Birinci vitse-prezident Mehriban Əliyevaya təşəkkür ediblər.

Onlar, həmçinin torpaqlarımızı işğaldan azad edən rəşadətli Azərbaycan Ordusuna, qəhrəman əsgər və zabitlərimizə minnətdarlıqlarını bildirib, bu yolda canlarından keçən şəhidlərimizə rəhmət diləyiblər.

Qeyd edək ki, Ağdam şəhərinə köç edənlər respublikanın müxtəlif yerlərində, əsasən yataqxanalarda, sanatoriya və inzibati binalarda müvəqqəti məskunlaşmış ailələrdir.

* * *

Köçənlər arasında Sərxan Nuriyev də var. O, doğma şəhərindən 30 yaşında ayrılıb. İllər sonra Ağdama qayıdış onun üçün həyatının ən böyük arzularından birinin gerçəkləşməsidir. Sözlərinə şükür və minnətdarlıqla başlayan Sərxan Nuriyev doğma torpağa qayıdış sevincini şəhidlərin xatirəsi ilə birlikdə bölüşür. O, bu günün gerçəkləşməsində həyatını itirənlərin və müharibədə iştirak edən hərbçilərin rolunu xüsusi qeyd edir: “Allah şəhidlərimizə rəhmət eləsin! Məzarları nurla dolsun, yerləri cənnət olsun! Allah qazilərimizə və müharibədə iştirak edən hərbçilərimizə cansağlığı, uzun ömür versin!”.

Daha sonra onun sözlərində bir arzu, xüsusilə önə çıxır: Sülh. “Bir daha müharibə olmasın. Mənim ən böyük arzum odur ki, gələcək nəsil firavan yaşasın. Gənclərimiz xoşbəxt həyat sürsünlər. Biz də nə qədər ömrümüz var, baxaq, fəxr edək”, - deyir Ağdam sakini.

Doğma torpaqdan ayrıldığı illəri geridə qoyan Sərxan Nuriyev üçün qayıdış həm də itirilən illərin xatırlanmasıdır. O deyir ki, uşaqlığı və gəncliyi doğma şəhərində keçib. Bu səbəbdən Ağdama dönüş arzusu onun və onun kimi minlərlə keçmiş sakinin həyatında xüsusi yer tutub.

“Bu gün torpağımız azaddır, Allaha şükür olsun. Doğulduğumuz doğma torpaqda yaşamaq, bizim üçün böyük xoşbəxtlikdir”, - deyə o hisslərini dilə gətirir.

* * *

Ağdam sakini Ağca Hacıyeva da doğma şəhərə qayıdanlar arasındadır. Onun üçün bu günün ən böyük mənası illərlə davam edən həsrətin sona çatmasıdır: “Həsrətimiz sona çatdı. Allaha şükür ki, yerimizə, yurdumuza qayıdırıq”.

Keçmiş məcburi köçkün bu günün gerçəkləşməsi ilə əlaqədar Prezident İlham Əliyevə təşəkkürünü bildirib. O, eyni zamanda, şəhidlərin fədakarlığını xüsusi vurğulayıb: “Şəhidlərimizin ruhu şad olsun. Allah Prezidentimizə də cansağlığı versin”.

Ağca Hacıyeva doğma yurda tək qayıtmır. Qızı, bacısı və nəvəsi də onunla birlikdə Ağdama gedirlər.

# Azərbaycan Ordusunun şəxsi heyəti ilə keçirilən ictimai-siyasi hazırlıq dərsi

## (İctimai-siyasi hazırlıq dərsinin qrup rəhbərinə dərsə hazırlaşmaq üçün kömək)

**Mövzu: Döyüş mühafizəsində, döyüş növbəsində, qarovulda və daxili naryadda xidmətin nümunəvi aparılması ordunun yüksək döyüş hazırlığının rəhnidir.**

**Suallar:**

**1. Döyüş mühafizəsində, döyüş növbəsində, qarovulda və daxili naryadda xidmətin xüsusiyyətləri.**

**2. Bölmənin şəxsi heyətinin qoşun xidmətini yerinə yetirmək üçün hərtərəfli hazırlığa səfərbərliyi.**

**3. Döyüş mühafizəsində, döyüş növbəsində, qarovul və daxili naryadda xidmətin aparılması məsuliyyətli və şərəfli işdir.**

### Döyüş mühafizəsində, döyüş növbəsində, qarovulda və daxili naryadda xidmətin xüsusiyyətləri

Hərbi hissələrin və bölmələrin daimi yerləşmə yerlərində, düşərgələrdə və döyüş şəraitində yüksək döyüş hazırlıqlı olmalarını, qarşıya qoyulmuş döyüş tapşırıqlarını vaxtında və müvəffəqiyyətlə həll etmələrini, mühüm hərbi obyektlərin etibarlı mühafizəsini, bölmələrdə daxili qayda-qanunun saxlanmasını, bölmələrin silah və sursatının, əmlakının qorunmasını təmin etmək üçün döyüş və ümumqoşun nizamnamələrinin tələbləri əsasında müvafiq xidmətlər təşkil olunur. Bu xidmətlər öz xüsusiyyətlərinə görə fərqlənirlər:

- daxili xidmət - hərbi hissələrdə, bölmələrdə, parklarda, tədris müəssisələrində, düşərgələrdə, eləcə də qoşunların yerdəyişməsi zamanı günün nizam qaydalarına ciddi riayət olunması, daxili qayda-qanunun saxlanması, silah və sursatın, digər əmlakın qorunması üçün Silahlı Qüvvələrin Daxili Xidmət Nizamnaməsinə uyğun təşkil edilir;
- qarovul xidməti - Döyüş Bayrağının, silahların, döyüş texnikasının, sursatların, partlayıcı maddələrin və digər əmlakın saxlanıldığı anbarların və s. hərbi obyektlərin etibarlı mühafizəsini və müdafiəsini təmin edir;
- döyüş mühafizəsi və döyüş növbətçiliyi - hərbi hissə və bölmə qarşısında qoyulmuş döyüş tapşırıqlarını müvəffəqiyyətlə yerinə yetirmək, döyüş hazırlığının yüksək səviyyədə saxlanılmasını təmin etmək üçün təşkil edilir.

Döyüş mühafizəsi və döyüş növbətçiliyinə təyin olunan bölmənin, hər bir hərbi qulluqçunun əsas vəzifələrindən biri də təhkim olunmuş döyüş və digər texnikanın, silahların, avadanlıqların həmişə saz, döyüş tapşırıqlarının yerinə yetirilməsinə hazır vəziyyətdə saxlanılmasıdır. Döyüş mühafizəsinə təyin olunan hərbi qulluqçu hər hansı bir ekstremal şəraitdə vəzifə borcunu yerinə yetirməyə özünü hazırlamalıdır.

Bu vəzifələri nümunəvi yerinə yetirmək üçün görülən işlərin əsas məqsədi:

- bölmə və hissələrdə döyüş hazırlığının yüksək səviyyədə saxlanılmasını, qoşun xidmətinin əhəmiyyətini hərbi qulluqçulara ətraflı izah etmək;
- hərbi qulluqçularda yüksək şüurluluq, əqidə möhkəmliyi, siyasi sayıqlıq, qarovul və qarnizon xidmətində, döyüş mühafizəsi və döyüş növbətçiliyində öz vəzifə borclarını dəqiq və qüsursuz yerinə yetirmək üçün şəxsi cavabdehlik hisslərini tərbiyə etmək;
- hərbi qulluqçuları qoşun xidmətinə dair sənədləri, təlimatları, müdafiə nazirinin əmrlərini, hərbi nizamnamələri, Azərbaycan Respublikasının qanunlarını dərindən öyrənməyə yönəltmək;
- hərbi nizamnamələrin tələblərinin, qarovul və qarnizon xidməti qaydalarının, döyüş mühafizə və döyüş növbətçiliyinin aparılma qaydalarının pozulmasına görə hərbi qulluqçuların məsuliyyətini müəyyənləşdirən hüquq normalarını izah etmək;
- daxili xidmət, qarovul və qarnizon xidmətlərinin yerinə yetirilməsində qabaqcıl təcrübənin öyrənilməsini, ümumiləşdirilməsini və yayılmasını təşkil etmək, qoşunlarda mövcud ənənələri, xidmətdə hünər və qəhrəmanlıq nümunələrini təbliğ etmək;
- qarovula, daxili naryada, döyüş növbətçiliyinə və döyüş mühafizəsinə hazırlıq dövründə və xidmət edərkən hərbçilərlə daha təsirli təlimat və tərbiyəvi xarakterli işlər aparmaq, qabaqcıl təcrübəni komandirlər (rəislər) və şəxsi heyət arasında yaymaq;
- naryadda olan hərbi qulluqçuların maddi-məişət və mədəni tələbatlarının öyrənilib təmin olunmasına qayğı göstərməkdir.

### Bölmənin şəxsi heyətinin qoşun xidmətini yerinə yetirmək üçün hərtərəfli hazırlığa səfərbərliyi

Daxili xidmətə, qarovul və qarnizon xidmətinə hazırlıq prosesində hərbi nizamnamələrin öyrənilməsi, hərbi qulluqçulara nizamnamə tələbləri ilə yaşamaq və xidmət etmək hissi aşılamaq başlıca yer tutur. Bu məqsədlə döyüş və humanitar hazırlıq məşğələlərindən əlavə məqsədyönlü təbliğat işləri aparılır. Bölmələrdə, hissələrdə və gəmilərdə mühazirələr oxunur, konfranslar keçirilir, söhbətlər aparılır. Mövzuların təxmini adları: “Nizamnamə qaydalarının yerinə yetirilməsində qoşun xidmətinin əhəmiyyəti”, “Hərbi nizamnamələr hərbçi həyatının hüquqi və mənəvi normalarının toplusudur” və s.

Komandirlər və şəxsi heyətlə iş üzrə zabitlər gənc əsgər və matroslara nizamnamələrin əsas müddəalarını izah etdikdə onların diqqətini gündəlik naryadda vəzifə borclarını bilmələrinə, gün növbətçisinə və patrula verilən konkret tapşırıqlara cəlb etməlidirlər.

Hərbi qulluqçularda öz vəzifə borclarını qüsursuz yerinə yetirmək üçün lazım olan mənəvi və döyüş keyfiyyətlərinin formalaşmasında ictimai-siyasi hazırlıq dərslərinin böyük rolu var. Ona görə də ictimai-siyasi hazırlıq dərslərində qrup rəhbərləri döyüş mühafizəsində, döyüş növbəsində, qarovul və daxili naryadda xidmətin aparılmasında möhkəm intizamın və yüksək sayıqlığın əhəmiyyətini daha dərindən anlamaqda hərbi qulluqçulara köməklik edirlər. Məhz bu dərslərin sayəsində şəxsi heyətin döyüş ruhu formalaşır, dünyagörüşü artır, mənəvi maariflənməsi həyata keçirilir.

Qoşun xidmətinə dair məsələlər məruzələrdə, söhbətlərdə, divar qəzetlərində və döyüş vərəqələrində işıqlandırılır. Hərbi hissələrdə hər ayın axırında qoşun xidmətinin təhlili aparılır, yekunlaşdırılır və hərbi hissə komandirinin müvafiq əmri ilə elan edilir. Həmin əmrdə qoşun xidmətinin yoxlanılması zamanı aşkar edilmiş nöqsanlar göstərilir, daxili naryad, qarovul, döyüş növbətçiliyi xidmətlərinin aparılmasını yaxşılaşdırmaq üçün tədbirlər müəyyən edilir, eləcə də fərqlənənlərə həvəsləndirmə tətbiq edilir.

### Döyüş mühafizəsində, döyüş növbəsində, qarovul və daxili naryadda xidmətin aparılması məsuliyyətli və şərəfli işdir

Daxili xidmətə təyin olunmuş hərbi qulluqçularla iş aparılarkən yataqxanada, döyüş maşınları parkında, yeməkxanada, hərbi şəhərciyin ərazisində nizamnamə qaydalarına əməl edilməsinə onların cavabdehliyi xüsusi qeyd olunur, lazımi təlim məşğələsi keçirilir və bu məşğələdə yerli şəraitə uyğun yüksək sayıqlıq və döyüş hazırlığını təmin edən amillər öyrənilir. İndiki dövrdə qarovul xidmətinin, döyüş mühafizəsinin və döyüş növbətçiliyinin xüsusi əhəmiyyət kəsb etməsi məşğələdə dinləyicilərə çatdırılmalıdır. Bu isə ondan irəli gəlir ki, düşmən kəşfiyyatçıları ordumuzun döyüş sayıqlığı və qoşunların yerləşdiyi məntəqələr haqqında məlumat toplamaq üçün hər cür vasitələrə əl atır.

Hərbi Dəniz Qüvvələrinin gəmilərində də növbətçiliyin xüsusi növü - “vaxta” xidməti təşkil olunur. Gəminin və onun mexanizmlərinin idarə olunması şəraitinə nəzarət etmək, düşmənin qəfil hücumu zamanı silah tətbiqini və gəmidə nizam-intizamın gözlənilməsini təmin etmək üçün növbətçi daim sayıq olmalıdır. Qarovul rəisi hərbi hissənin (birləşmənin) anbar, park və maşın (təyyarə, qurğu) dayanacaqlarının və digər mühüm obyektlərin mühafizə postlarına xidmətə təyin olunan şəxslərlə xüsusi iş aparır və onların daha sayıq olmasına daim nəzarət edir.

Qoşunların fəaliyyətində daxili xidmət naryadlarının, qarnizon və qarovul xidmətlərinin xüsusi əhəmiyyəti vardır. Bu xidmətlər hissə və bölmələrin döyüş hazırlığını müəyyən edən müasir tələblər əsasında hərbi nizamnamələrə uyğun təşkil olunur. Daxili naryadın vəzifəli şəxslərinin hazırlığı onların nizamnamə vəzifələrini yerinə yetirmələrini təmin edir. Ona görə də naryada təyin olunan şəxsi heyət öz vəzifə borcların müxtəlif şəraitlərdə, məsələn, “həyəcan”, “toplanış” siqnalları alarkən, silah-sursat verərkən, səhər baxışı və axşam yoxlamaları aparar-kən məşğələ saatlarında hərəkət qaydalarının öyrənilməsinə məsuliyyətlə yanaşmalıdır. Naryada təyin olunan hər bir hərbi qulluqçu nizamnamə üzrə vəzifələrini əsaslı təkrar etməlidir.

Qarovul (vaxta) xidmətinə təyin olunan hər bir əsgər, çavuş bu xidmətin döyüş tapşırığı olduğunu, qarovulda qoyulmuş tapşırıqların yüksək məsuliyyətini şüurlu dərk etməli, nizamnamə qaydalarının hər cür pozulmasına qarşı ciddi mübarizə aparmalıdır.

Qarovulda əsas diqqət Döyüş Bayrağının, saxlancların, parkların mühafizəsinə, eləcə də gecə vaxtı və pis hava şəraitində xidmət aparan şəxsi heyətin təlimatlandırılmasına yönəldilir. Onlar öz vəzifələrini yerinə yetirərkən yüksək sayıqlıq nümayiş etdirməlidirlər.

Qarnizon xidmətinin şəxsi heyəti ilə aparılan işlərin forması və məzmunu qarovul xidmətində olduğu kimidir. Lakin burada hərbi qulluqçulara təlimat keçərkən onların hərbi hissədən kənara çıxması, yerli əhali ilə təmasda olması qeyd edilir və ona görə də onlardan daim sayıqlıq, hərbi sirləri qoruyub saxlamaq, təmkinlilik, nümunəvi xarici görünüş tələb olunur. Ümumiyyətlə, aparılan işlərin əsas məqsədi hərbi qulluqçuları şəraitdən asılı olmayaraq hərbçi şərəfinə layiq xidmət etməyə, Hərbi Andın, nizamnamələrin və komandirlərin (rəislərin) tələblərini dəqiq və qüsursuz yerinə yetirməyə ruhlandırmaqdır.

Bu gün Azərbaycan əsgəri dövlətin qayğısını hər zaman üzərində hiss edərək, xalqdan güc alaraq torpaqlarımızın müdafiəsində ayıq-sayıq dayanır və istənilən silahlı təxribata layiqli cavab verməyə hər an hazırdır. Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyev 15 oktyabr 2023-cü ildə Xankəndi şəhərində xalqa müraciətində demişdir: “... Bu gün Azərbaycan Silahlı Qüvvələri istənilən vəzifəni şərəflə yerinə yetirə bilər və biz bunu döyüş meydanında sübut etdik, həm üç il bundan əvvəl Vətən müharibəsi dövründə cəmi 44 gün ərzində düşməni kapitulyasiya aktına imza atmağa məcbur etdik, eyni zamanda, keçən ay cəmi 23 saat davam edən antiterror tədbirləri bizim gücümüzü göstərdi və yenə də düşmən ağ bayraq qaldıraraq təslim oldu...”

Bu gün Azərbaycan əsgəri torpaqlarımızın müdafiəsində ayıq-sayıq dayanır. Regionda yaranmış hərbi-siyasi vəziyyət Azərbaycan Ordusunun hissə və birləşmələrinin daim döyüş hazırlıqlı və ərazi bütövlüyümüzə qarşı yönəldilən hər bir təcavüzə layiqli cavab verməyə qadir olmasını tələb edir. Bu gün Azərbaycan əsgəri Vətənin maraqlarını şərəflə qoruyur.

Bir vaxtlar prioritet vəzifəsi ərazi bütövlüyümüzü bərpa etmək olan ordumuz, bundan sonra da həmin bütöv və qüdrətli Azərbaycan Respublikasının qorunmasında öz missiyasını layiqincə yerinə yetirəcək. Daim öz xalqının iftixar mənbəyi kimi tarixin şanlı səhifələrində özünə yer tapması üçün hər bir hərbi qulluqçudan ona həvalə edilmiş vəzifələrin məsuliyyətini dərindən dərk etməsi tələb edilir. Yalnız möhkəm hərbi intizama malik olmaqla, komandirlərin əmr və göstərişlərini dəqiq və sözsüz yerinə yetirməklə dərslərdə, təlimlərdə və gələcək döyüşlərdə yüksək nəticələr əldə etmək olar.

***Qeyd:*** *İctimai-siyasi hazırlıq qrupunun rəhbəri bu məşğələyə hazırlaşarkən Daxili Xidmət Nizamnaməsinin, Qarnizon və Qarovul Xidməti Nizamnaməsinin, Qoşun Xidməti haqqında əmr və təlimatların tələblərini diqqətlə öyrənməli və məşğələyə hazırlaşarkən öz bölməsinin tapşırıqlarını, xüsusiyyətlərini, xidmət şəraitini nəzərə alaraq mövzunu bölmənin gündəlik həyatı ilə bağlamalıdır.*

**İdeoloji Təminat İdarəsi**

*Hərbi hüquq*

## Hərbi qulluqçuların statusu üçün təminatlar

**III bölmə**

**Maddə 26.** Hərbi qulluqçuların statusunu təmin etmək sahəsində dövlət orqanlarının, müəssisələrinin, idarələrinin, təşkilatlarının və vəzifəli şəxslərin vəzifəsi və məsuliyyəti

**1.** Dövlət orqanları, müəssisələri, idarələri, təşkilatları, vəzifəli şəxslər, hərbi idarəetmə orqanlarının komandirləri (rəisləri) öz səlahiyyətləri və vəzifələri daxilində hərbi qulluqçuların statusunu təmin edirlər. Hərbi qulluqçuların hüquqlarının və qanuni mənafeyinin həyata keçirilməsi sahəsində vəzifələrini icra etməməkdə və ya lazımınca icra etməməkdə təqsirli olan vəzifəli şəxslər qanunvericiliyə müvafiq surətdə məsuliyyət daşıyırlar.

**2.** Onlara qarşı qanunsuz hərəkətlər nəticəsində həqiqi hərbi xidmətdən ehtiyata buraxılmış, hərbi rütbədən məhrum edilmiş və ya hərbi rütbəsi kiçildilmiş zabitlər və müddətdən artıq həqiqi hərbi xidmət qulluqçuları məhkəmənin qərarı ilə əvvəlki rütbəyə, həqiqi hərbi xidmətə, əvvəlki xidmət yerində və ya hərbi təhsil müəssisəsində təhsil aldığı yerdə tutduğu vəzifədən aşağı olmayan vəzifəyə bərpa edilir. Həqiqi hərbi xidmətdən qanunsuz buraxılmaq günündən hərbi xidmətə bərpa gününədək keçən vaxt, qanunsuz həbsdə saxlanmaq və ya qanunsuz məhkumluğun nəticəsində cəza çəkmək vaxtı hərbi qulluqçuların həqiqi hərbi xidmət müddətinə, hərbi rütbədə xidmət müddətinə, müvafiq vəzifələrdə xidmət müddətinə, pensiya təyin edilmək üçün xidmət müddətinə, müddətli həqiqi hərbi xidmət qulluqçularının isə xidmət hərbi xidmət müddətinə daxil edilir.

Onlara qarşı qanunsuz hərəkətlər nəticəsində yaşayış sahəsindən məhrum edilmiş hərbi qulluqçulara bir ay müddətində əvvəlki yaşayış sahələri qaytarılır və ya üç aydan gec olmayaraq bərabər dəyərli abad yaşayış sahəsi növbədənkənar verilir.

**3.** Təhqiqat, ibtidai istintaq, prokurorluq və məhkəmə orqanlarının qanunsuz hərəkətləri nəticəsində hərbi qulluqçulara vurulmuş ziyan qanunvericiliyə müvafiq olaraq ödənilir.

# Xəbərlər: hadisələr, faktlar



**Küveyt Baş Qərargahı: HHM sistemi İranın raket və PUA hücumlarının qarşısını alır**

Küveytin hava hücumundan müdafiə (HHM) sistemləri İran tərəfindən raket və pilotsuz uçuş aparatları (PUA) ilə həyata keçirilən hücumun qarşısını alır.

Bu barədə Küveyt Silahlı Qüvvələrinin Baş Qərargahı məlumat yayıb.

"Hazırda Küveytin HHM qüvvələri düşmənin raket hücumlarına və PUA zərbələrinə qarşı mübarizə aparır", - deyə qurumun bəyanatında bildirilib.

Baş Qərargahdan qeyd olunub ki, eşidilən partlayış səsləri HHM sistemlərinin fəaliyyəti ilə bağlıdır. Vətəndaşlara təhlükəsizlik qaydalarına və müvafiq təlimatlara əməl etmək çağırışı edilib.

**Moskva istiqamətində uçan 10 PUA zərərsizləşdirilib**



Moskva istiqamətində uçan 10 pilotsuz uçuş aparatı (PUA) Rusiyanın hava hücumundan müdafiə qüvvələri tərəfindən məhv edilib.

Bu barədə Moskva meri Sergey Sobyanin "MAX" sosial şəbəkəsindəki kanalında bildirib.

"Rusiya Müdafiə Nazirliyinin hava hücumundan müdafiə qüvvələri Moskva istiqamətində uçan 10 PUA-nı məhv edib. Təcili xidmətlərin əməkdaşları PUA qalıqlarının düşdüyü ərazilərdə işləyirlər", - deyə mer diqqətə çatdırıb.



**ABŞ-də atışmada ikisi polis olmaqla, bir neçə insan güllələnib**

ABŞ-nin Minneapolis şəhərində atışma baş verib.

Minneapolis Polis Departamentinin yaydığı məlumata görə, hadisə zamanı iki polis məmuru da daxil olmaqla bir neçə insan güllələnib.

İnsanlardan hadisə yerinə yaxınlaşmamaları xahiş edilib. Hadisənin detalları hələlik bilinmir.

**İsrail Qəzzadan fələstinlilərin əksəriyyətinin köçürülməsinə hazır olduğunu açıqlayıb**



İsrail Qəzzada müharibədən sonrakı dövr üçün yerli əhalinin kütləvi şəkildə köçürülməsini ən yaxşı həll yolu hesab edir və fələstinlilərin anklavdan təşkil edilmiş şəkildə çıxarılması üçün şərait yaratmağa hazırdır.

Bunu İsrailin müdafiə naziri İsrael Kats "The Times of Israel" qəzetinə müsahibəsində bildirib.

Onun sözlərinə görə, bu planın həyata keçirilməsi üçün ABŞ Prezidenti Donald Trampın razılığı gözlənilir. Kats Qəzzada vəziyyətin həlli üçün fələstinlilərin köçürülməsinin zəruri olduğunu iddia edib.

Nazir bildirib ki, İsrail hökuməti fələstinlilərin Qəzzadan dəniz, hava və digər yollarla çıxarılmasını təşkil etməyə hazırdır. O, Trampın 2025-ci ilin fevralında Qəzza əhalisinin köçürülməsi ilə bağlı irəli sürdüyü planın ləğv edilmədiyini, sadəcə olaraq həyata keçirilməsinin dayandırıldığını və müzakirələrin davam etdiyini söyləyib.

**AZƏRTAC-ın materialları əsasında**

## Erməni siyasətçi: "2018-ci ildən bu günədək orduda qeyri-döyüş şəraitində 460 hərbçi ölüb"

"2026-cı ildə qeydə alınan 33 hadisədən 13-ü hərbi xidmətlə əlaqəli, 20-si isə əlaqəsiz hesab olunub".

Bunu "Güclü Ermənistan" partiyasının üzvü Qohar Meloyan deyib.

O, Ermənistan Silahlı Qüvvələrində qeyri-döyüş şəraitində baş verən ölümlərlə bağlı statistik məlumatlar açıqlayıb.

Meloyanın paylaşdığı məlumatlara əsasən, 2010-2017-ci illərdə Ermənistan Silahlı Qüvvələrində döyüş şəraitində 163, qeyri-döyüş şəraitində isə 299 ölüm hadisəsi qeydə alınıb.

"Ermənistan Silahlı Qüvvələrində qeyri-döyüş itkiləri ilə bağlı məlumatlar belədir: 2010-2017-ci illərdə döyüş şəraitində 163, qeyri-döyüş şəraitində isə 299 hadisə baş verib. 2018-ci ildən bu günədək döyüş şəraitində 84, qeyri-döyüş şəraitində isə 460 hərbçi ölüb", - deyə Meloyan bildirib.

O, 2026-cı ildə qeydə alınan ölüm halları ilə bağlı da məlumat verərək qeyd edib ki, ümumilikdə 33 hadisədən 13-ü hərbi xidmətlə əlaqəli, 20-si isə hərbi xidmətlə əlaqəsiz hesab olunub.

"Qeyd olunan məlumatlara 2016, 2020, 2022 və 2023-cü illərdə baş verən müharibələr zamanı döyüş şəraitində ölənlər daxil edilməyib", - deyə Meloyan vurğulayıb.

# İdman



**Avarçəkmə və kanoe üzrə Azərbaycan çempionatına yekun vurulub**

Gənclər və İdman Nazirliyi ilə Azərbaycan Kanoe və Avarçəkmə Federasiyasının birgə təşkilatçılığı əsasında keçirilən avarçəkmə və kanoe üzrə Azərbaycan çempionatı başa çatıb.

Gərgin idman mübarizəsi şəraitində keçən ikinci yarış günündə avarçəkənlər 16 dəst medal uğrunda mübarizə aparıblar.

Qalib idmançılar diplom və medallarla mükafatlandırılıb.

Qeyd edək ki, bu turnirdə fərqlənən idmançılar Mingəçevir Reqatası beynəlxalq turnirində mübarizə aparacaq komandanın heyətinə cəlb olunacaq.

**Azərbaycan kikboksçusu Dünya Kubokunda qızıl medal qazanıb**



Azərbaycan kikboksçusu Həsən Allahyarov Macarıstanın paytaxtı Budapeştdə keçirilən WAKO Dünya Kubokunda uğurlu nəticə göstərib.

Yeniyetmələr arasında LK (Low Kick) üzrə 71 kiloqram çəki dərəcəsində mübarizə aparan idmançı bütün rəqiblərinə qalib gələrək qızıl medal qazanıb.

Qeyd edək ki, yarış 27-31 avqust tarixlərində təşkil edilib.



**Neymarın komandası Braziliya kuboku ilə vidalaşdı**

"Palmeyras" Braziliya Kubokunun 1/4 final mərhələsinin cavab oyununda "Santos"la qarşılaşıb.

San-Pauludakı "Vila Belmiro" stadionunda keçirilən görüş qolsuz heç-heçə ilə başa çatıb.

Braziliya millisinin hücumçusu Neymar "Santos"un start heyətində meydana çıxıb. Futbolçu fasilədə əvəzlənib.

Komandalar arasında ilk oyun "Palmeyras"ın 3:0 hesablı qələbəsi ilə başa çatıb. Beləliklə, iki oyunun nəticəsinə əsasən 3:0 hesabı ilə qalib gələn "Palmeyras" turnirin yarımfinalına yüksəlib.

Qeyd edək ki, "Palmeyras" yarımfinalda "Vasko da Qama" ilə qarşılaşacaq.

**AZƏRTAC-ın materialları əsasında**

Gizir Hüseynov Elgiz Namizəd oğluna verilmiş SQ № 00230691 nömrəli şəxsi vəsiqə itdiyi üçün etibarsız sayılır.

Müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu çavuş Əliyev Renat Ərzuman oğluna verilmiş AD № 0026839 nömrəli hərbi bilet itdiyi üçün etibarsız sayılır.

Müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu çavuş Quliyev Nicat Bəxtiyar oğluna verilmiş AD № 0038451 nömrəli hərbi bilet itdiyi üçün etibarsız sayılır.

Müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu çavuş Səməndərli Gündüz Səməndər oğluna verilmiş AD № 0047878 nömrəli hərbi bilet itdiyi üçün etibarsız sayılır.

Müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu kiçik çavuş Quliyev Elşən Şamil oğluna verilmiş AD № 0023106 nömrəli hərbi bilet itdiyi üçün etibarsız sayılır.

Müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu baş əsgər Ərzimanov Nurlan Rövşən oğluna verilmiş AD № 0033814 nömrəli hərbi bilet itdiyi üçün etibarsız sayılır.

Müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu əsgər Mehdiyev Nəbi Şakir oğluna verilmiş AD № 0030003 nömrəli hərbi bilet itdiyi üçün etibarsız sayılır.

Müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu əsgər Ağaverdiyev Ağaverdi Əli oğluna verilmiş AD № 0023106 nömrəli hərbi bilet itdiyi üçün etibarsız sayılır.


| Redaktor | Telefon | Ünvanımız | Qəzetin hesabı | | Növbətçi | |
|---|---|---|---|---|---|---|
| mayor Ceyhun CƏFƏRLİ | Müdafiə Nazirliyinin Hərbi Nəşriyyatı üzrə növbətçisi: (012) 404-76-22 | Bakı şəhəri, Yasamal rayonu, Şəfaət Mehdiyev küçəsi 144, "Qızıl Şərq" hərbi şəhərciyi | 2 saylı xəzinədarlıq Kod: 200189 VÖEN: 1500444791 | "Azərbaycan Ordusu" qəzeti kompüter mərkəzində səhifələnərək həftədə iki dəfə (III və VI günlər) Müdafiə Nazirliyinin Hərbi Nəşriyyatının mətbəəsində hazır diapozitivlərdən çap olunur. Təqdim edilən əlyazmalara rəy verilmir, müəllifə qaytarılmır. Qəzeti Müdafiə Nazirliyinin rəsmi internet səhifəsindən (www.mod.gov.az) oxuya bilərsiniz. | kapitan Fuad CƏFƏROV | Lisenziya № 361 Sifariş № 745 Nüsxə 3653 |